# Maqsud Şeyxzadə haqqında xatirələr

**Gülşən Kəngərlinskaya**
A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan.
E-mail: gulshan27@mail.ru
https://orcid.org/0000-0001-5791-4813

Görkəmli özbək şairi Maqsud Şeyxzadə keşməkeşli taleyə malik olan böyük mütəfəkkir ədəbi simalardan biridir. O, Özbəkistanın qüdrətli şairi, Azərbaycanın tanınmış övladıdır. Maqsud Şeyxzadə üçün Özbəkistan da Azərbaycan kimi doğma vətəndir. Bədii yaradıcılığa Azərbaycanda başlamış Maqsud Şeyxzadə Özbəkistanda məşhur sənətkar kimi şöhrət qazanmışdır. Maqsud Məsim oğlu Şeyxzadə 7 noyabr 1908-ci ildə Ağdaş şəhərində anadan olmuşdur. O, ilk təhsilini Ağdaşda "Əhmədiyyə" ibtidai məktəbində, daha sonra isə Muxtar Əfəndinin 1906-cı ildə açdığı "Rüşdiyyə" məktəbində almışdır. Görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Nəriman Nərimanov 1918-ci ildə Ağdaşda ezamiyyətdə olarkən, təşkil edilmiş bir tədbirdə 10 yaşlı Maqsud öz şeirini söyləmiş, bu hadisə ədibin diqqətini cəlb etmişdir. Nəriman Nərimanovun təqdimatı ilə "Kommunist" qəzetinin 1921-ci ilin 21 dekabr tarixli sayında 13 yaşlı Maqsudun üç şeiri dərc olunmuşdur. Bakı Darülmüəllimində – Pedaqoji Məktəbində təhsil alan Maqsud Şeyxzadə Hüseyn Cavid, Abdulla Şaiqin dərslərini dinləmiş, onlardan aldığı millət, ədəbiyyat və türkçü – anadan olmasının 110 illiyi münasibətilə məruzələr, məqalələr və fotolar toplusu 4-lük ideyaları onun vətənpərvər gənc şair kimi formalaşmasında mühüm rol oynamışdır. Cəmi iyirmi yaşında ikən millətçi damğası iləəvvəlcə Dağıstana, oradan da Özbəkistana sürgün edilmiş Maqsud Şeyxzadə qısa müddətdə özbək dilini öyrənmiş, bu dildə şeirlər və məqalələr yazmışdır. Özbək ədəbiyyatının görkəmli klassiki Əlişir Nəvai haqqında yazıb mətbuatda çap etdirdiyi məqalə onun ədəbi mühitdə tanınmasına səbəb olmuşdur. Özbəkistan elmi-ədəbi mühiti Maqsud Şeyxzadənin yetişib formalaşmasında mühüm ədəmiyyətə malik olmuşdur.

O zaman onun şəxsiyyət kimi böyüklüyünü, poeziyasını, özbək ədəbiyyatı üçün gördüyü işləri, dramaturji istedadının böyük əhəmiyyətini dərk etmək üçün mən hələ çox kiçik idim. Ancaq babam Maqsud Şeyxzadənin və nənəm Səkinə xanımın Daşkənddən bizə gəlişinin necə böyük sevinc və bayram hissi yaşatdığını xatırlayıram.

Bizim ailəmiz – anam Kamilla xanım, atam Fuad bəy, anamın xalası Taci xanım (Səkinə nənəmizin bacısı) və qardaşım Rüstəm Bakıda, babam və nənəm isə Daşkənddə yaşayırdılar. Və ildə bir, yaxudda iki ildə bir dəfə babam və nənəm öz doğma vətənlərinə və sevimli şəhərlərinə – Bakıya gələrdilər. Bu hadisə ailəmiz üçün əsl bayrama çevrilərdi. Bütün ailə – anamın xalası Taci xanım (biz ona "nənə" deyə müraciət edərdik), xalam Alimə xanım anamla birlikdə Azərbaycan mətbəxinə aid dadlı yeməklər hazırlayardılar. Taci nənəm çox gözəl şəkərbura, paxlava, şorqoğal bişirərdi. Əgər bu şirniyyatlar hazırlanırdısa, üstəlik, hələ Novruz bayramı deyildisə, bilirdik ki, Qağa və Xalacan tezliklə bizə gələcəklər. Biz babamızı Qağa, nənəmizi isə Xalacan deyə çağırırdıq.

Babamla bircə dəfə ünsiyyətdə olan adam onun həddən artıq sadəliyinin və təvazökarlığının şahidi olardu. Özü də bu xarakterini cəmiyyətin bütün təbəqələrindən və müxtəlif peşə sahiblərindən olan adamlar deyərdilər. Uşaqlarla rəftarı daha heyrətamiz idi. Təkcə bizimlə – nəvələri ilə deyil, tanımadığı belə, yenicə gördüyü uşaqlarla da xoşrəftar idi. Necə deyərlər: "uşaqla uşaq, böyüklə böyük idi".

Qohumumuz Almaz xanım İsrafilova öz xatirələrində yazır: Maqsud Şeyxzadənin həyat yoldaşı Səkinə xanım Astarada anadan olmuşdu. O, anamın xalası qızı idi. Buna baxmayaraq, Özbəkistanda yaşadığı müddətdə heç vaxt Astaraya gəlməmişdi. 1964-cü ildə Bakıda yazıçıların mədəniyyət günləri keçirilirdi. Özbəkistandan Maqsud Şeyxzadə gəlmişdi. Dekadadan sonra 3 günlük həyat yoldaşı Səkinə xanım ilə birlikdə qohumları yoluxmağa Astaraya gəldilər. Astara, oranın əhalisi, təbiəti Maq-

sud Şeyxzadənin çox xoşuna gəlmişdi. O, gedəndə söz verdi ki, gələn il məzuniyyətini Astarada keçirəcək. “Mən dünyanın bir çox ölkələrini gəzmişəm, amma buranın təbiəti, xüsusən təmiz havası mənim çox xoşuma gəlir”. Vəd etdiyi kimi, 1962-ci ildə Astaraya Səkinə xanımın xalası qızıgilə gəldilər və bir ay orada istirahət etdilər. Onların Astarada olduqları müddətdə onları ziyarət etmək üçün rayonun bir çox ziyalıları və sadə adamları (onunla) bizim evimizə gəlirdilər. Maqsud Şeyxzadə çox sadə bir insan idi. O, gündüzlər əhalinin arasında olurdu, onlarla söhbətlər edirdi. Heç bir kəsin qəlbinə toxunmayırdı. Onların həyat tərzi ilə maraqlanırdı. Gecələr isə ay işığından, dəniz tərəfdən gələn mehdən zövq alaraq yazırdı. Bir gün Maqsud Şeyxzadə ilə rayonun əhalisi arasında mədəniyyət evində raykom katibinin (icra başçısı) təşəbbüsü ilə görüş keçirtmək təklifi gəldi. Maqsud Şeyxzadə etiraz etmədi. Görüş günü o, Astaraya aid bir gözəl şeir yazdı. Həmin şeirdə Astaranın gözəlliyi və mənim anamın Hacıbəylinin simasında İki xalqın oğlu Maqsud Şeyxzadə 165 oranın qadınlarının qonaqpərəst, səmimi olduqlarını əks etdirdi. Maqsud Şeyxzadənin Astarada olduğu müddətdə Azərbaycanın görkəmli bəstəkarı Oqtay Kazımov da Astarada idi. O, bizə gəlib onunla yazdığı şeirə musiqi bəstələdi. Demək olar ki, həmin mahnı 1-2 saat ərzində yarandı. Maqsud Şeyxzadə ilə görüşdəki rəsmi hissədən sonra, möhtəşəm bədii hissə oldu və həmin bədii hissədə “Astara” mahnısı səsləndi. Mahnının məzmunu belə idi: “Astaranı bir görən onu heç vaxt unutmaz”. Sonralar bu mahnı respublikanın Əməkdar artisti Anatolu Qəniyev tərəfindən radio və televiziyada səslənib məhşurlaşdı. Bu mahnının sözləri şüar kimi böyük bir lövhədə daimi Lənkəranın qurtaracağı, Astaranın başlanğıcında vurulmuşdu. Astarada olduğu müddətdə respublikanın Əməkdar artisti, mərhum Lütfəli Abdullayev “Ulduz” kinosunda çəkilirdi, gəlib tez-tez Maqsud Şeyxzadəyə baş çəkirdi.

Maqsud Şeyxzadə – şair və pedaqoq, geniş və zəngin ruhlu, hamı ilə tez dil tapan, hər kəsə kömək əlini uzadan bir ziyalı idi. Sözü və əməli bir olan insan idi. Özbəkistan və Azərbaycanda neçə aztəminatlı azərbaycanlı gənc ali təhsil alarkən, bizim babamız onlara həm mənəvi, həm də maddi dəstək göstərmişdi. Baş vermiş belə bir hadisə Özbəkistanda hamıya məlum idi. Ananın tək böyütdüyü, imkansız bir tələbəyə hər ay öz cibindən təqaüd verirmiş. Babam rəhmətə gedəndən sonra bu yardım – təqaüd kəsilir. Ana instituta gəlib etirazını bildirir ki, oğlunun təqaüdünü niyə kəsiblər? Və o zaman məlum olur ki, bu məbləği Maqsud Şeyxzadə öz hesabından həmin tələbəyə ödəyirmiş.

1977-ci ildə Asəf Zeynallı adına Musiqi Məktəbini bitirdikdən sonra mən təhsilimi davam etdirmək qərarına gəldim. Sənətşünas olmağı çox arzu edirdim. Daşkənd Dövlət Universitetində təhsilimi davam etdirmək seçimim təsadüfi olmamışdı. Məhz bu universitetin tarix fakültəsində “İncəsənətin nəzəriyyəsi və tarixi” ixtisası var idi. Bu yöndə təhsil postsovet məkanında – Moskva, Leninqrad və Kiyev şəhərlərində də var idi.

Babamın ikinci vətəni məhz Daşkənd idi. O vətən ki, babam onu sevir, onunla fəxr edirdi və özbək poeziyasının və dramaturgiyasının inkişafında çox böyük xidmətləri olmuşdur. Məni tanıyan, bilən hər kəs çox ünsiyyətcil olduğumu söyləyir. Bu, həqiqətən belədir və mənə elə gəlir ki, bu xasiyyətim babamdan keçib.

İlk səyahətim hələ altı aylıq olarkən valideynlərimlə məhz Daşkənd şəhərinə olmuşdur. Sonralar bütün uşaqlıq illərimdə nənəm ilə birlikdə səmimi insanları olan günəşli şəhərdə çox olmuşam. Odur ki, anamla birgə qərarımız qəti oldu: təhsilimi Daşkənddə davam edəcəyəm.

Bu xatirələrimi indi sizinlə bölüşərkən, sadəcə, o zaman keçirdiyim hissləri sizə çatdırmaq istəyirəm, indi də düşünürəm ki, görəsən onda haqlımı olmuşam? O zamanlar orta ümumtəhsil (texnikum) və peşə məktəblərini əla qiymətlərlə bitirən abituriyentlər ali məktəblərə qəbul zamanı iki imtahan verirdilər. Və əgər iki imtahandan “əla” qiymət alardılarsa, seçdikləri fakültəyə qəbul olunardılar. Məni də iki imtahan gözləyirdi: tarix və ədəbiyyat. Tarix imtahanını verib “əla” qiymət aldıqdan sonra ədəbiyyat imtahanı üzrə qəbul komissiyası sədrinin qarşısında imtahan biletinin suallarına, əlavə suallara cavab verdim. Əlavə suallar Azərbaycan poeziyası və nəsrindən oldu. Cavabım imtahan komissiyası sədrinin xoşuna gəldi və mənə gözlənilməz sual verdi: “Axı siz niyə filologiya fakültəsini seçmirsiniz? Elə bu dəqiqə qərar verin və biz sizi filologiya fakültəsinə qeyd edək”. Mən tə-

şəkkürümü bildirib, bu təklifdən imtina etdim. Axı mən tarixi və sənətin tarixini öyrənmək istəyirdim.

Uşaqlıq və gənclik illərində babam Qağa və nənəmlə bağlı xatirələrim çoxdur. Onlardan eşitdiyim bəzi məsəllər vardır ki, son vaxtlara kimi elə bilirdim ki, bunlar atalar sözüdür. Sən demə, bu kəlmələr sadəcə, babamın öz deyimləri idi. Məsələn, "sağlığında kor Fatı, öləndə badamgözlü bacım hey".

Ali təhsilimə 1977-ci ildə Daşkənddə başladım. O zamanlar tələbələri pambıq yığmağa aparırdılar. 1978-ci ildə mən də hamı kimi pambıq yığımına getdim. İlk yığdığım pambıq cəmi 200 qram gəldi. Çünki mən yalnız pampığın liflərini yığmışdım, digər tələbələr isə qozalarla birlikdə yığmışdılar, odur ki, onların yığdıqları çəki ağır gəlirdi. Noyabrın 1-ci həftəsi idi, dayım böyük qazanlarla gəldi. Bütün tələbələri aşa qonaq elədi. Həmin il noyabrın 7-də babamın 70 illik yubileyi qeyd edilirdi. Dayım mənə geri qayıtmaq üçün icazə alanda hamı bildi ki, mən Maqsud Şeyxzadənin nəvəsiyəm. Mənə qarşı hörmət, diqqətcillik, isti münasibət bir az da artdı. Özbək xalqı çox sadə və istiqanlı, səmimi bir xalqdır. O vaxta qədər yalnız rəfiqəm Gülşad Daşməhəmmədova bilirdi ki, mənim babam kimdir. Çünki onun babası – Özbəkistanın Xalq şairi Aybək ilə mənim babam bir yerdə işləyib, yazıb-yaradıblar.

Bu günə qədər də biz Gülşadla dostluq edirik. Dostluq etməyi bacarmaq, insanları sevmək, qiymətləndirmək bizə babamızdan keçib. Tələbəlik illərində yoldaşlarımı Bakıya qonaq gətirirdim. Bizim ailədə babalarımız, valideynlərimiz və biz, 3-cü nəsil də bir-birimizlə yaxın dostluq əlaqəsi saxlayırıq. 5 il bir yerdə təhsil aldıqdan sonra tale bizi ayırsa da, biz bu günə qədər bir-birimizi axtarırıq, isti münasibətlərimizi saxlayırıq. Təkcə Gülşadla deyil, digər tələbə yoldaşlarımızla da əlaqə saxlayıram.

Babam Maqsud Şeyxzadənin xarakterinin daha bir cəhətindən – illər boyu davam edən dostluq etmək xarakterindən danışmaq istərdim.

Biz – onun nəvələri, uşaqlıqdan bütün Özbəkistanda məhşur olan bu adları eşidirdik: Aybək, Həmid Əlimcan, Zülfiyyə və başqaları. Bunlar Özbəkistanın məşhur şair və yazıçılarının adlarıdır.

Gözəl qadın, istedadlı şair və dərin zəkalı Zülfiyyə apanı tanımaq və görmək də mənə qismət olmuşdu, hətta onların evində çox tez-tez olurdum. Səbəbi isə sadə idi. Zülfiyyə ananın nəvəsi Gülşad (o həm də Aybəyin oğul nəvəsi idi) həmin dövrdə Zülfiyyə nənəsi ilə qalırdı və biz bir yerdə Daşkənd Dövlət Universitetinin tarix fakültəsində eyni qrupda təhsil alırdıq. Aramızda möhkəm dostluq münasibətləri var idi. Bu da çox təbii idi. Çünki bu, həqiqi, saf dostluq münasibətlərinin əsasını bir əsr əvvəl babalarımız və nənələrimiz qoymuş, valideynlərimiz, daha sonra biz – nəvələr davam etdirirdik. Həmid Əlimcanın və Zülfiyyə apanın qızı Ülkər Əlimcanın namizədlik dissertasiyasının mövzusu Maqsud Şeyxzadənin yaradıcılığına həsr edilmişdi.

Mən Ülkər apa və Amanbəy Daşməhəmmədovların (Aybəyin böyük oğlu) qızları Gülşad və Lalə ilə baxmayaraq ki, ayrı-ayrı ölkələrdə, hətta qitələrdə yaşayırıq, bu günə qədər dostluq edirik. Bu kitabın özbək dilində ərsəyə gəlməsində Lalə Daşməhəmmədovanın əməyi var.

Niyə bütün bunları sizlərə danışıram, sadəcə mənim, qardaşımın, xalam uşaqlarının ədəbiyyata, qiraətə böyük həvəsimizin hardan qaynaqlandığını izah etmək üçün. Sözsüz ki, valideynlərimizdən ötürülüb. Anam Kamilla xanım, xalam Alimə xanım və dayım Rasim bəy sadəcə olaraq seçdikləri peşənin kamil biliciləri deyildilər, onlar həm də zəngin mütaliəli idilər. Bu il 84 yaşı tamam olan dayımız Rasim bəy indi də fəal oxucudur. Təsadüfmü?! Əlbət ki yox! Körpəlikdən atalarının çox, həm də müxtəlif dillərdə mütaliə və tərcümə etdiyini görürdülər. Əlbəttə, bu böyük nümunə bizim üçün bir məktəb idi. Maqsud Şeyxzadə nəinki müxtəlif dillərdə mütaliə edirdi, həm də bir çox dildə şeir və pyeslər də yazırdı. Bütün türk xalqlarının nümayəndələri ilə onların öz dilində danışırdı. Atalarının öz həmkarları, dost və qohumları tərəfindən necə hörmətlə qarşılandığını, sevildiyini, həmçinin atalarının insanları necə sevdiyini, həmişə onlara kömək etdiyini görən övladlar, mədəniyyət və poeziya abhavası olan bir evdə tərbiyə almışdılar.

Mən babamla, nənəmlə həmişə öyünmüşəm, bu gün də öyünürəm ki, belə bir ailənin övladı olmuşam.

İndi isə, qardaşım Rüstəm Kəngərlinskayanın babamızla bağlı xatirələrini sizlərlə bölüşürəm: “XX əsrin 70-ci illərinin əvvəllərində orta məktəbi bitirdikdən sonra mən Nəqliyyat İnstitutunun tikinti fakültəsinə daxil olmaq üçün Daşkəndə gəldim. Mən öz dayımgildə qalırdım. Həftədə 2-3 dəfə nənəm Səkinə xanımın yanına gedirdim və ona təsərrüfat işlərində kömək edirdim. Səkinə xanım 4 otaqlı mənzildə tək yaşayırdı. Burada bir otaq var idi-babamın kabineti və həmişə açarla bağlı olardı. Nənəm belə deyirdi ki, kabineti bağlı saxlamaqla Maqsud Şeyxzadənin sağlığında yaşayıb yaratdığı o ab-havanı, atmosferi qoruyub saxlamaq istəyir.

Tədris ilinin sonunda seçdiyim ixtisas ürəyimcə olmadığı üçün, Daşkənd Dövlət Universitetinə qəbul olunmaq qərarına gəldim. Və öz qərarımı gizli saxladım. Müvəffəqiyyətlə qəbul imtahanı verib şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsinə qəbul olundum. Sentyabr ayında tələbə biletləri paylandı və mən Səkinə xanıma həqiqəti açıqladım. O, tələbə biletini əlində saxlayıb xeyli susdu.

Mən soruşdum ki, seçimim onun xoşuna gəlməyibmi? O, o biri otağa keçib əlində açarla qayıtdı. Kabinetin qapısını açıb məni içəri dəvət etdi və dedi: "bundan sonra sən burada çalışacaqsan".

Mən onda anladım ki, o, ürəyində ümid edirdi ki, mən nə vaxtsa babamın ərəb dilində olan saysız-hesabsız yazılarını və qeydlərini araşdıra bilərəm. İlk dəfə kabinetin kandarına ayaq basanda, məni çulğalayan hisslərdən yerimdə dondum. İlk hiss-heyrət idi: kitablar, kitablar, kitablar. Onlar hər yerdə idi: çoxlu sayda rəflərdə, yazı masasının, jurnal masasının, stullar və qotuqlu oturacaqların üzərində. Bir də çoxlu sayda əlyazmaları ilə dolu papkalar, izahlı və xarici dil lüğətləri vadı. Özü də kitablar müxtəlif dillərdə idi. Axı Maqsud Şeyxzadə səkkiz dil bilirdi.

İkinci hiss – fərəh hissi idi. Mən ilk adam idim ki, babamın ölümündən sonra Səkinə xanım kabinetə daxil olmağa icazə verirdi. Mənim babam Maqsud Şeyxzadə ilə bağlı parlaq uşaqlıq xatirələrim var. 1964-cü ilin payızında babam nənəmiz Səkinə xanımla Daşkənddən Bakıya gəlmişdilər. Bir gün babam Qaqa (biz onu belə çağırırdıq) məni evimizin yaxınlığındakı Dzerjinskiy adına parkda gəzintiyə dəvət etdi. Qürur hissi var idi. Mən çox müqəddəs və qeyri-adi bir şeylərə toxunurdum. Bir az tərəddüd də var idi. Mən babama aid olan əşyalara toxunmağa qorxurdum. İçimdə məni illər uzunu rahat buraxmayan bir hiss var idi. Bu, küskünlük və haqsızlıq hissi idi. Taleh niyə babama belə qısa ömür yazıb?. Maqsud Şeyxzadənin özbək xalqı üçün böyük xidmətləri olmuşdur. Həmişə bu xalqı çox sevmiş və Özbəkistanı ikinci vətəni adlandırmışdı. Azərbaycanı öz vətəni adlandırıb, həmişə sevib, heç zaman unutmayıb. Biz həyətin içindən keçdik. Biz nümunəvi olan dəmiryolçuların həyətində yaşayırdıq. Hər yerdə oturacaqlar, insanların istirahəti üçün xüsusi oturacaqlı guşələr, uşaqlar üçün meydançalar var idi. Həmçinin yay kinoteatrı da var idi. Biz babamla söhbət edə-edə qırmızı guşənin, hardakı təqaüdçülər oturub nərd, domino, dama oynayırdılar, yanından keçirdik. Siz fikirləşin ki, orda necə hay-küy vardı? Qaqa məndən soruşur ki, bu nə "yığıncaqdır"? Qeyd etməliyəm ki, bu günə qədər mən babamı yad insanlarla ünsiyyətdə görməmişdim. Bu dəfə babam "qırmızı guşə" yə daxil oldu. Biz daxil olan kimi sakitlik çökdü və hamı bizə baxdı. Babam özünü təqdim etdi və nərd oynamaq istəyini bildirdi. Dərhal ona yer verdilər və oyun başladı. Mənim heç ağlıma da gəlməzdi ki, mənim babam belə həvəskar oyunçu imiş. Babam o vaxt çəkdiyi kazbek papirosunu çıxartdı və ətrafdakılara da təklif etdi. Qutu bir an içində boşaldı. Qaqa məni çağırıb qulağıma pıçıldadı ki, evə gedib dörd qutu da gətirim.

10 dəqiqədən sonra mən papiroslarla qayıdanda, məndə elə təəssürat oyandı ki, babam ömrü boyu bu məhəllədə yaşayıb və bu insanları yaxşı tanıyır. Uşaq olduğum ücün mən o zaman dərk eləmirdim ki, mənim babam unikal xarakterə malik idi. Onun isti və açıq təbiəti insanları o dəqiqə özünə cəlb edirdi. Babamgil Daşkəndə qayıdandan sonra hələ uzun müddət "Maqsud bir də Bakıya nə vaxt gələcək", – deyə soruşurdular.